Funded by the European Union

# XƏBƏR BÜLLETENİ

AZƏRBAYCANDA YOL HƏRƏKƏTİNİN TƏHLÜKƏSİZLİYİNİN GÜCLƏNDİRİLMƏSİ
NO. 3/2023




## POLŞAYA TƏLİM-TƏDRİS SƏFƏRİ

3-7 aprel 2023-cü il tarixlərində Azərbaycanın müvafiq dövlət qurumlarının nümayəndələri üçün tvinninq layihəsinin 2-ci komponenti üzrə “Yol hərəkətinin təhlükəsizliyinin idarə olunması üzrə effektiv sistemin qurulması” mövzusunda Polşanın Varşava və Qdansk şəhərlərinə təlim-tədris səfəri təşkil edilib.

Səfərdə Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi (RİNN), RİNN tabeliyində Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi, və Daxili İşlər Nazirliyi kimi Azərbaycanda yol hərəkətinin təhlükəsizliyinin idarə edilməsinə cavabdeh olan inzibati orqan və qurumların nümayəndələri iştirak ediblər.

Səfər çərçivəsində, Azərbaycan nümayəndələri Polşanın fərqli qurumlarına, o cümlədən Avtomobil Nəqliyyatı Baş Müfəttişliyi, Nəqliyyatı Avtomatik İdarəetmə Mərkəzi (CANARD), Varşava Paytaxt Polis Baş Qərargahı, İnkişaf Fondları və Regional Siyasət Nazirliyi, Avropa İttifaqının Nəqliyyat Layihələri Mərkəzi (Layihənin aparıcı qurumu), Qdansk şəhərinin Nəqliyyatı İdarəetmə və Nəzarət Mərkəzinə (TRISTAR) baş çəkərək, onların Polşada yol hərəkətinin təhlükəsizliyinin təmin olunmasında rolu ilə tanış olublar.

## ƏLAQƏ MƏLUMATI

Avropa İttifaqı Nəqliyyat Layihələri Mərkəzi
Plac Europejski 2, 00–844 Varşava, Polşa
Telefon: +48 22 262 05 37
E-poçt: cupt@cupt.gov.pl
kgrot@cupt.gov.pl

Rezident Tvinninq Məsləhətçisinin Ofisi
Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi
E-poçt: ejaszczuk@cupt.gov.pl, twinning-az@cupt.gov.pl
Tel: +994 55 418 49 87
Zərifə Əliyeva küçəsi 77, Bakı, AZ1000 Azərbaycan

**LAYİHƏNİN MÜDDƏTİ:**
OKTYABR 2022-Cİ İL – OKTYABR 2024-CÜ İL

Onlar, həmçinin Yanğınsöndürmə Xidmətinin Baş Məktəbində yol-nəqliyyat hadisələri qurbanlarına yardımın göstərilməsi proseduru və üsullarının nümayişinə şahid olmaq və Azərbaycan Respublikasının Polşa Respublikasındakı səfiri ilə görüşmək imkanı əldə etdilər. Bundan əlavə, nümayəndələrə Milli Avtomobil Yolları və Magistral Yollar Baş İdarəsinin (GDDKIA) Tunel İdarəetmə Mərkəzinə səfər zamanı tunellərdə təhlükəsizlik və nəzarət sistemləri haqqında da ətraflı məlumat verildi.

Polşaya səfər iştirakçılara yol qəzaları riskləri və həyata keçirilən yüksək texnoloji həllərə xüsusi diqqət yetirməklə, Polşanın yol hərəkəti təhlükəsizliyinin idarə edilməsi strukturları və siyasətləri haqqında bilik və anlayışlar əldə etmək imkanı verdi.

Ümumilikdə, bütün bu təcrübələr nümayəndələrə Polşada yol hərəkətinin təhlükəsizliyinin təmin olunması prosesi haqqında hərtərəfli məlumat verdi. Bunun, Azərbaycanda yol hərəkətinin təhlükəsizliyinin gücləndirilməsi tədbirlərinin inkişafına töhfə verəcək dəyərli təcrübə olacağına ümid edirik.



## KOMPONENT 1 ÇƏRÇİVƏSİNDƏ FƏALİYYƏT 1.2.1 ÜZRƏ TVİNNİNQ MİSSİYASI

30 may-02 iyun tarixləri arasında Bakı, Azərbaycanda “Yol nəqliyyatı təhlükəsizliyi qurumlarının təfərrüatlı xəritələşdirilməsi və funksional təhlili üzrə hesabatın (məqsədləri, missiyaları, funksiyaları, məlumat axınları, Yol Hərəkətinin Təhlükəsizliyinə dair Dövlət Proqramının icrası çərçivəsində boşluqları və həddindən artıq və ya əhəmiyyətsiz vəzifələri müəyyən etmək məqsədi ilə) hazırlanması”na dair 1.2.1-ci fəaliyyət çərçivəsində layihə missiyası həyata keçirilmişdir.

Avropa İttifaqının Nəqliyyat Layihələri Mərkəzini təmsil edən Üzv Dövlət Layihə Rəhbəri və Litva Nəqliyyat Təhlükəsizliyi Administrasiyasının nümayəndəsi Kiçik Tərəfdaş Layihə Rəhbəri Azərbaycanda yol-nəqliyyatı təhlükəsizliyinin institusional bazasının mövcud vəziyyətinin hərtərəfli təhlili məqsədilə Azərbaycanın qurumlarının nümayəndələri ilə ardıcıl görüşlər keçiriblər.

Layihə komandası Rəqəmsal İnkişaf ə Nəqliyyat Nazirliyi (RİNN), Daxili İşlər Nazirliyi, İqtisadiyyat Nazirliyi, Elm və Təhsil Nazirliyi, Fövqəladə Hallar Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi, Səhiyyə Nazirliyi, RİNN tabeliyində Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi, Bakı Nəqliyyat Agentliyi və Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi kimi müvafiq maraqlı tərəflərlə müzakirələr aparıb.

İclaslar bu qurumların məqsəd və missiyalarının nəzərdən keçirilməsinə, onların funksiya və fəaliyyət sahələrinin başa düşülməsinə, yol təhlükəsizliyi ilə bağlı məlumat axınının qiymətləndirilməsinə və mövcud institusional bazada hər hansı həddindən artıq və ya əhəmiyyətsiz fəaliyyət və ya boşluqların müəyyənləşdirilməsinə həsr olunub.

Missiyanın nəticəsində nəqliyyat sahəsində fəaliyyət göstərən qurumların təfərrüatlı xəritələşdirilməsi və funksional təhlili üzrə hərtərəfli hesabat hazırlanacaqdır. Bu hesabat Azərbaycanda avtomobil nəqliyyatı təhlükəsizliyinin institusional bazasına dair dəyərli töhfələr və 2019-2023-cü illər üçün Yol Hərəkətinin Təhlükəsizliyinə dair Dövlət Proqramının icrasının təkmilləşdirilməsi üçün tövsiyələr verəcək.

## KOMPONENT 2 ÇƏRÇİVƏSİNDƏ FƏALİYYƏT 2.4.1 ÜZRƏ TVİNNİNQ MİSSİYASI

Tvinning Layihəsinin İş Planına uyğun olaraq fəaliyyət 2.4.1 üzrə 15-18 may 2023-cü il tarixlərində "Yol nəqliyyat hadisələrinin təfərrüatlı təhlilinə həmçinin qara nöqtələrin (qəzaların və yol-nəqliyyat hadisələrin tez-tez baş verdiyi yolun bir hissəsi) aradan qaldırılması üçün təfərrüatlı layiləndirmənin və texniki spesifikasiyaların hazırlanmasına imkan verən yenilənmiş yol nəqliyyat hadisələrinə qarşı preventiv mexanizm" mövzusunda onlayn missiya həyata keçirilib.

Polşa və Litvanın müxtəlif qurumlarını təmsil edən ekspertlər Azərbaycanın müvafiq qurumlarının nümayəndələri ilə sıx əməkdaşlıq edərək Azərbaycanda yol-nəqliyyat hadisələrinin qarşısının alınması mexanizminin mövcud vəziyyətinin təhlilini aparmaq üçün səylərini birləşdiriblər. Yol nəqliyyatının ümumi xüsusiyyətləri (yol şəbəkəsi, nəqliyyat vasitələri, infrastruktur), xilasetmə və qəzadan sonra tibbi yardım, istifadə olunan yol-nəqliyyat hadisələrinin qarşısının alınması mexanizmlərinin vasitə və üsulları missiyanın gedişatında xüsusi əhəmiyyət verilən mövzular sırasında olub.




Üzv Dövlətlər tərəfindən missiyaya cəlb olunmuş qurumlar Polşanın Milli Avtomobil Yolları və Magistral Yollar Baş İdarəsi, İnfrastruktur Nazirliyi, Avtomobil Nəqliyyatı Baş Müfəttişliyi və Litvanın Nəqliyyat Səlahiyyətləri Agentliyi olub. Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi (RİNN), Səhiyyə Nazirliyi, Fövqəladə Hallar Nazirliyi və Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi və RİNN tabeliyində Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi kimi qurumlar görüşlər zamanı müvafiq sahə üzrə biliklərini bölüşüblər.

Onlar mövcud vəziyyətin qiymətləndirilməsində və bu Fəaliyyət çərçivəsində müəyyən edilmiş nəticəyə nail olmaq üçün hüquqi, institusional-hüquqi və infrastruktur mühitində mümkün dəyişikliklərin zəruriliyi ilə bağlı tövsiyələr hazırlanmasında Layihə ekspertlərinə dəstək olublar.

## KOMPONENT 3 ÇƏRÇİVƏSİNDƏ FƏALİYYƏT 3.8.1 ÜZRƏ TVİNNİNQ MİSSİYASI

3-cü Komponent çərçivəsində Fəaliyyət 3.8.1 üzrə "Ölkə miqyasında yol hərəkətinin təhlükəsizliyi üzrə məlumatlılığın artırılması və kommunikasiya strategiyası, o cümlədən təbliğat və təşviqat üzrə fəaliyyət planının hazırlanması və istifadə olunması" mövzusunda Bakıda keçirilən üç günlük missiya səmərəli şəkildə yerinə yetirilmişdir.

Sürət həddinin aşılması, sərxoş vəziyyətdə idarəetmə, təhlükəsizlik kəmərlərindən istifadə və nəqliyyat vasitəsinin idarə edilməsi zamanı diqqətin yayındırılması və s. daxil olmaqla, yol hərəkətinin təhlükəsizliyi haqqında zəruri məlumatlılığın formaşdırılmasına yönəlmiş hərtərəfli yol hərəkətinin təhlükəsizliyi strategiyasının hazırlanması üçün bütün tərəflər birgə çalışmalı və əməkdaşlıq etməlidir. Buna görə də, bu sahədə təcrübəyə malik olan Polşa və Litvanın nümayəndələri Azərbaycanda yol hərəkətinin təhlükəsizliyi üzrə effektiv kommunikasiya strategiyasının hazırlanması üçün əsas istiqamətləri müəyyənləşdirmək məqsədilə 16-18 may 2023-cü il tarixlərində Azərbaycan nümayəndələri ilə bir sıra faydalı görüşlər keçirmişlər.



Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, RİNN tabeliyində Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi, Azərbaycan Milli Avtomobil Klubu, eləcə də Azərbaycan Texniki Universiteti və Memarlıq və İnşaat Universitetinin nümayəndələri Litva və Polşada uğurla həyata keçirilən sosial kampaniyalarla tanış olublar. İştirakçılar Litva Nəqliyyat Təhlükəsizliyi Administrasiyasının, Polşa İnkişaf Fondları və Regional siyasət Nazirliyi və Avropa İttifaqının Polşadakı Nəqliyyat Layihələri Mərkəzinin nümayəndələri ilə Azərbaycanda bu cür kampaniyaların həyata keçirilməsi və prioritetləşdiriləcək konkret hədəf auditoriyasının müəyyənləşdirilməsi ilə bağlı fikir mübadilələri aparıblar.

Bu missiya çərçivəsində keçirilən görüşlərdə Azərbaycan tərəfinin fəal iştirakını nəzərə alsaq, bu Fəaliyyətin məqsədinin uğurla həyata keçiriləcəyinə qəti şəkildə əmin ola bilərik.

# BE A GOOD HOST ON THE ROADS!



## İDARƏETMƏ KOMİTƏSİNİN İKİNCİ İCLASI

“Azərbaycanda yol hərəkətinin təhlükəsizliyinin gücləndirilməsi” tvinninq layihəsi üzrə İdarəetmə Komitəsinin ikinci iclası 5 may 2023-cü il tarixində Bakıda keçirilib. İclas layihənin ikinci rübü ərzində həyata keçirilən fəaliyyətlərin nəzərdən keçirilməsinə həsr olunub.

Rezident Tvinninq Məsləhətçisi Edyta Jaszczukun moderatorluq etdiyi iclasda Üzv Dövlətlərin və Benefisiar Ölkənin Layihə Rəhbərlərinin, həmçinin Avropa İttifaqının Azərbaycandakı Nümayəndəliyinin və Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinin (Proqram İdarəetmə Qurumu) nümayəndələri iştirak ediblər.

İclas zamanı layihənin fəaliyyətləri, büdcəsi, ekspert missiyalarının qrafiki, layihənin icrasının növbəti 3 ayı üçün Kommunikasiya və Məlumatlandırma Planını əhatə edən 2-ci Rüblük Aralıq Hesabat və 2 saylı “Sürüşkən” İş Planı təqdim edilib, müzakirə edilib və İdarəetmə Komitəsi tərəfindən təsdiq edilib.




AZƏRBAYCANDA YOL HƏRƏKƏTİ TƏHLÜKƏSİZLİYİNİN GÜCLƏNDİRİLMƏSİ

Bu nəşr Avropa İttifaqının maliyyə dəstəyi ilə hazırlanmışdır.
Bu nəşrin məzmununa görə məsuliyyəti yalnız "Azərbaycanda Yol Hərəkətinin Təhlükəsizliyinin Gücləndirilməsi" Tvinninq Layihəsi daşıyır və Avropa İttifaqının mövqeyini əks etdirmir.